## Müdrik kəlamları

İçkinin başlanğıcı günah, ortası sərxoşluq, sonu fəlakətdir.

Nə pis adamlardan yaxşılıq gözlə, nə də yaxşı adamlardan pislik.

Ağıl əmr edəni dil bəyan edər.

Tamahın dalınca gedərsə hər kəs, Xalqın hörmətini qazana bilməz.

İnsaflı cəza yersiz təltifdən yaxşıdır.

İstəsən güzgütək saf olsun ürək, Sinəndən on şeyi atasan gərək: Haram, qeybət, kin, paxıllıq, tamah, Kibr, riya, həsəd, ədavət, kələk.

Ədalət də eşq və şərab kimi ürəklərin pasını silər.

Tamahını azalt, hörmətin artsın.

Adam var ki, bilməz nədir qanacaq, Fazil adamlara lağ edər ancaq.

Qızıl həm oğrudur, həm də gülbədən, Üz döndər bu kimi ikiüzlüdən.

Tamah zəncirini ancaq sağlam ağıl qıra bilər.

Çox möhnətin sonu bir gün səadətdir bu dünyada. Qış gedər bahar gələr, bir adətdir bu dünyada.

Bir piyada olub düz getmək xoşdur, Bir vəzir olub əyri getməkdən.

Aldatmasın bu fələyin küpündəki boya səni, Yas paltarı geyən gözəl dəvət etməz toya səni.

O insanki dözər dərdə, baş əyməz mərdə, namərdə, Onu diz çökdürə bilməz tutan dörd əllə dünyanı.

Sən məzlumların qayğısını çəkməsən, sənə də kimsə qayğı bəsləməz.

Uşağa xoş gələr qırmızı, sarı, Kişi cummaz lələ, qızıla sarı.

Xəsis yemək zamanı toyuğu hinə salar, pişiyi evdən qovar.

Təmkinli insanlara səbr çox yaraşır.

Hər kim qızıl yığıb töksə kisəyə, Kisə tək boğazı keçər ilməyə.

Kimin qızıldadır gücü, yəqin bil, O, quldur, qızılın sahibi deyil.

Qızılın qiymətini məhək, sözün qiymətini söz sərrafı bilər.

Ağlın varsa, gücə, qızıla, nüfuza tabe olma! Qoy sənə rəhbərlik edən ancaq təmiz vicdanın olsun.

Gözlə öz nəfsini, öz izzətini, Tapdaq etməsinlər heysiyyətini.

Mənəm mənəm deyib öymə özünü, Həmişə müxtəsər eylə sözünü.

Eşşək başına yaraşmayır qızıl tac,
Eşşək üçün yaranmışdır palan, noxta və ağac.
Bir eşşəyin noxtası gər ola mirvaridən,
Baxan deyər nə rəzildir bu heyvan.